Azərbaycan
TEXNİKİ
Universiteti

Azərbaycan Texniki Universitetinin Elmi Şurasının "17" mart 2025-ci il tarixli iclasının qərarı ilə təsdiq edilmişdir (Protokol № 06)

# AZƏRBAYCAN TEXNİKİ UNİVERSİTETİ

## FƏALİYYƏT PLANI 2025
## (STRATEJİ İNKİŞAF PLANININ İCRASI ÜÇÜN)

**2025 BAKI**

**Qeyd:** Fəaliyyət planı Azərbaycan Texniki Universiteti Strateji inkişaf planı 2024-2030 sənədinə əsaslanaraq hazırlanmışdır.

### Azərbaycan Texniki Universiteti Strateji inkişaf planının icrasına dair Fəaliyyət planı (2025-ci təqvim ili)

| İstiqamət | Məqsəd (alt hədəf) | İcra ediləcək fəaliyyət | İcra müddəti (ay, il) | İcraya məsul struktur(lar) | Keyfiyyət və kəmiyyət göstəriciləri | | Fəaliyyətin icrası üçün ayrılan resurs(lar) (insan, infrastruktur, maliyyə) | Qeyd |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Hədəf indikatoru | Nəticə indikatoru | | |
| KEYFİYYƏTLİ TƏHSİL | M1. H1.1. AH1.1.2.Müasir çağırışları qarşılayan Öyrətmə və Öyrənmə Mərkəzinin yaradılması və 2030-cu ilədək bütün ixtisaslar (proqram) üzrə professor-müəllim heyətinin metodoloji hazırlığının təmin edilməsi; | 1. Universitet üzrə akademik heyətin təlim ehtiyaclarının öyrənilməsi. 2. Ehtiyaclara uyğun müvafiq metodiki təlimlərin təşkil olunması. | aprel-dekabr 2025 | Tədris işləri üzrə prorektorluq, Tədris şöbəsi, Ömürboyu öyrənmə məktəbi, Təhsildə İT və metodik dəstək institutu fakültə və kafedralar | 1. Universitet üzrə akademik heyətin təlim ehtiyaclarının müəyyən edilməsi.<br>2. Müəyyən edilmiş təlim ehtiyaclarına uyğun metodiki təlimlərin təşkil olunması. | Ehtiyaclara uyğun metodiki təlimlərdən keçmiş professor müəllim heyətinin illik 15%-ə çatdırılması. | Tədris şöbəsi, Ömürboyu öyrənmə məktəbi, Təhsildə İT və metodik dəstək institutu, kafedralar | |
| | M1. H1.1. AH1.1.3. Təlim prosesinin dərketmənin bütün mərhələləri üzrə tələbələrdə müvafiq bacarıq və səriştələrin formalaşması istiqamətində təşkil edilməsi; | 1. Tələbələrdə dərketmə mərhələlərini inkişaf etdirən interaktiv metodlar və praktiki tapşırıqlar təqdim etmək.<br>2. Tədqiqat və təcrübə işləri vasitəsilə mövzu seçimi, məlumat toplama, analiz və nəticə çıxarma bacarıqlarını inkişaf etdirmək.<br>3. Tələbələrdə müstəqil düşünmə və komanda işinə dair səriştələri formalaşdırmaq. | aprel - sentyabr 2025 | Tədris şöbəsi, Kurrikulumun planlaşdırma və koordinasiya qrupu, dekanlıqlar, kafedralar, akademik heyət | Fənn sillabuslarında müvafiq dəyişikliyin edilməsi,tələbələrə dərketmə mərhələlərini inkişaf etdirən interaktiv metodlar və praktiki tapşırıqlar təqdim etmək, dərs zamanı mövzu seçimi, məlumat toplama, analiz və nəticə çıxarma bacarıqlarını inkişaf etdirmək. | Tələbələrin dərs müddətində interaktiv metodlar və praktiki tapşırıqlar vasitəsilə məlumat toplama, analiz etmə və nəticə çıxarma bacarıqlarında ən azı 75% inkişaf əldə etməsi. | Tədris şöbəsi, Kurrikulumun planlaşdırma və koordinasiya qrupu, dekanlıq və kafedralar | |
| | M1. H1.1. AH1.1.4CDIO-ya tamhüquqlu üzv olmaqla, bir sıra ixtisaslarda bu yanaşma ilə yeni nəsil mütəxəssis hazırlığına başlanılması, 2030-cu ilədək mühəndis hazırlığının CDIO standartları əsasında aparılmasının təmin olunması. | 1. CDIO yanaşması əsasında mühəndislik proqramlarının hazırlanması. 2. Müəllimlərin CDIO metodologiyası üzrə hazırlanması 3. universitet və sənaye əməkdaşlığının artırılması. | mart-dekabr 2025 | Beynəlxalq əlaqələr üzrə prorektorluq, Tədris işləri üzrə prorektorluq, Elm və innovasiyalar üzrə prorektorluq, Ömürboyu öyrənmə məktəbi, İT və metodoloji dəstək xidməti, müvafiq şöbə, fakültə və kafedralar. | Mühəndislik proqramlarının CDIO standartlarına uyğunlaşdırılacaq, Müəllimlər CDIO metodlarını dərslərdə tətbiq edəcək, Sənaye və universitet əməkdaşlığın gücləndirmək. | Mühəndislik proqramlarının 15%-i CDIO metodlarına əsaslanır, tələbələrin 70%-i metodun effektivliyindən məmnundur. CDIO tətbiq edildiyi ixtisaslarda müəllimlərin 15%-i CDIO metodlarını uğurla tətbiq edir, tələbələrin 70%-i yüksək nəticələr göstərir. Birgə tədqiqat layihələrinin, seminar, konfrans, təlim və s. sayı. | Tədris şöbəsi, Kurrikulumun planlaşdırma və koordinasiya qrupu, dekanlıq və kafedralar, Keyfiyyətin təminatı şöbəsi | |
| | M1. H1.1. AH 1.1.5 Tədris planları və kurikulumlarının beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə CDIO yanaşmasının təhsil proqramlarının yenilənməsində istifadə edilməsi (xüsusilə, Materialşünaslıq, Kompüter elmləri, Elektrik və elektronika mühəndisliyi, Maşın mühəndisliyi ixtisaslarının tədris proqramları) | Tədris proqramlarına müvafiq dəyişikliklərin edilməsi, CDIO yanaşmasının Materialşünaslıq, Kompüter elmləri, Elektrik və elektronika mühəndisliyi, Maşın mühəndisliyi ixtisaslarının proqramlarına inteqrasiyası. | mart-dekabr 2025 | Tədris işləri üzrə prorektorluq, Tədris şöbəsi, Beynəlxalq əlaqələr üzrə prorektorluq, fakültələr, kafedralar. | CDIO yanaşmasını Materialşünaslıq, Kompüter Elmləri, Elektrik və Elektronika Mühəndisliyi, Maşın Mühəndisliyi ixtisaslarına inteqrasiya etmək. | Proqramlarda dəyişikliklərin nəzərə alındığı sillabusların 95% hazırlanması, İxtisaslara uyğun olaraq CDIO yanaşmasının tətbiqi üzrə tədris materiallarının 30%-nin yenilənməsi. | Tədris şöbəsi, Kurrikulumun planlaşdırma və koordinasiya qrupu, dekanlıq və kafedralar | |
| | M1. H1.2. AH1.2.1 Mühəndis hazırlığında orta ixtisas təhsili və ali təhsildə əlaqəli, fasiləsiz təhsilin təmin olunması məqsədilə orta ixtisas və ali təhsil pillələri arasında inteqrasiyanın həyata keçirməsi. | 1. Mühəndis hazırlığı üzrə orta ixtisas təhsili müəssisələri ilə əməkdaşlıq. 2. Orta ixtisas müəssisələri ilə müəllim və tələbə mübadilə imkanlarının yaradılması. | mart-dekabr 2025 | Tədris işləri üzrə prorektorluq, Tədris şöbəsi, Texniki təhsil və kolleclər üzrə müşavir, Fakültə və kafedralar, digər maraqlı tərəflər | Seçilmiş orta ixtisas təhsili müəssisələri (Bakı Texniki Kolleci, Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci) ilə kurikulumların əlaqələndirilməsi, müəllim və tələbə mübadilə imkanlarının yaradılması. | Əməkdaşlıq ediləcək proqramların (ixtisasların) sayı illik minimum 3. Mübadilədə iştirak edəcək tələbə və müəllimlərin sayındakı artım faizi. | Tədris şöbəsi, Texniki təhsil və kolleclər üzrə müşavir, Fakültə və kafedralar | |
| | M1. H1.3. AH1.3.1 Yeni qəbul olunmuş tələbələr üçün orientasiya proqramının təşkil olunması, ixtisasları üzrə təhsilin məzmununu və sahələri üzrə karyera imkanlarını əks etdirən təlimatın (yol xəritəsi) hazırlanması. | Yeni qəbul olunmuş tələbələr üçün orientasiya proqramlarının təşkil olunması, ixtisaslar üzrə müvafiq təlimatların hazırlanması. | mart-sentyabr 2025 | Tədris işləri üzrə prorektorluq, Tədris şöbəsi, Fakültə və kafedralar | Bütün fakültələrdə ixtisaslar üzrə orientasiya proqramlarının təşkil olunması və müvafiq təlimatların (təhsilin məzmununu, sahələri üzrə karyera imkanlarını və s.) hazırlanması. | Təşkil olunmuş orientasiya proqramlarının linkləri, Fakültələr üzrə orientasiya proqramlarının keçirilmə faizi 95%, İxtisaslar üzrə hazırlanmış təlimatların 85 % təşkil etməsi. | Tədris şöbəsi, Fakültə və kafedralar | |
| | M1. H1.4. AH1.4.1 Ali təhsilin magistratura və doktorantura səviyyələrində təlim-tədris prosesində dayanıqlı inkişaf məqsədlərinin tətbiqini təmin etmək | 1. Magistratura səviyyəsində dayanıqlı inkişaf məqsədlərinin uyğun fənlərin tədris proqramlarına inteqrasiyası. 2. Magistratura və doktorantura səviyyəsində tədqiqat və layihələrin bu məqsədlərə istiqamətləndirilməsi. | yanvar-sentyabr, 2025 | Tədris şöbəsi, Yüksək təhsil institutu, Enerji və dayanıqlı inkişaf institutu, dekanlıqlar, kafedralar. | Dayanıqlı İnkişaf istiqamətli ixtisaslar üzrə tədris proqramların hazırlanması, Dayanıqlı inkişafa yönəlmiş tədqiqat və layihələrin ümumi tədqiqatlar içindəki payında artım. | Dayanıqlı İnkişaf istiqamətli ixtisaslar üzrə tədris proqramların sayında illik 10% artım, Dayanıqlı inkişafla bağlı tədqiqat mövzularının və nəşr olunan elmi məqalələrin sayında 15% artım. | Tədris şöbəsi,Yüksək təhsil institutu, Enerji və dayanıqlı inkişaf institutu, dekanlıqlar, kafedralar. | |
| | M1. H1.4. AH1.4.3 Ölkənin prioritetləri əsas götürülməklə layihə və problem əsaslı öyrənmə metodologiyasının tədris proqramlarında nəzərə alınması; | 1. Ölkənin prioritetləri əsasında layihə və problem əsaslı öyrənmə metodologiyasının tədris proqramlarında tətbiqi. 2. Akademik heyətə layihə və problem əsaslı öyrənmə metodologiyasının tətbiqi üzrə təlimlərin keçirilməsi. | aprel-sentyabr, 2025 | Tədris işləri üzrə prorektorluq, Tədris şöbəsi, Ömürboyu öyrənmə məktəbi, Təhsildə İT və metodik dəstək İnstitutu, Keyfiyyətin təminatı şöbəsi, dekanlıqlar, kafedralar. | Prioritet sahələr üzrə problem və layihə əsaslı tədrisin təşkili, akademik heyət üçün təlimlərin (problem və layihə əsaslı) keçirilməsi və qiymətləndirmə metodlarının yenilənməsi üzrə tətbiq faizi və iştirakçı sayının artması. | Ölkənin prioritet sahələrinə uyğun olaraq layihə və problem əsaslı öyrənmə metodologiyasının tətbiq edildiyi tədris proqramlarının faizi. Akademik heyət üçün təşkil edilən təlimlərə qatılan müəllimlərin ümumi sayına nisbətdə iştirak faizi. | Tədris şöbəsi, Ömürboyu öyrənmə məktəbi, İT və metodik dəstək xidməti İnstitutu,dekanlıqlar, kafedralar. | |
| | M1. H1.4. AH1.4.4Türkiyə və Almaniya universitetlərinin layihə və problem əsaslı öyrənmə metodologiyası üzrə təcrübəsindən yararlanmaq, Türkiyənin elm və texnoloji mərkəzlərinin dəstəyindən istifadə etmək; | 1.Türkiyə universitetlərinin layihə və problem əsaslı öyrənmə metodologiyası üzrə təcrübəsindən yararlanmaq. 2. Türkiyənin elm və texnoloji mərkəzlərinin dəstəyindən istifadə edərək təhsil və tədqiqat sahələrində əməkdaşlıq qurmaq. | mart-noyabr, 2025 | Elm və innovasiyalar üzrə prorektorluq, Tədris işləri üzrə prorektorluq, Alman Mühəndislik Məktəbi, Türk mühəndislik və menecment məktəbi, Mühəndis Geliştirme Proqramı (MGP) qrupu, fakültə və kafedralar | Türkiyə və Almaniya universitetlərinin layihə və problem əsaslı öyrənmə metodologiyasını tətbiq edilməsi, Türkiyənin elm və texnoloji mərkəzlərinin dəstəyi ilə təhsil və tədqiqat sahəsində beynəlxalq əməkdaşlıq və təcrübə mübadiləsini gücləndirmək. | Türkiyə universitetləri ilə 3 -əməkdaşlıq layihəsinin həyata keçirilməsi və bu layihələrdə problem və layihə əsaslı öyrənmə metodlarının tətbiq edilməsi, Türkiyənin 2-3 əsas elm və texnoloji mərkəzi ilə ortaq tədqiqat layihələrinin həyata keçirilməsi və layihələrdən ən azı 1-nin beynəlxalq sərgilərdə nümayiş etdirilməsi. | Türk mühəndislik və menecment məktəbi, Mühəndis Geliştirme Proqramı (MGP) qrupu, fakültə və kafedralar | |
| | M1. H1.4. AH1.4.6. 2026-cı ilədək bir neçə ixtisasın, fənlərin qovşağında multidissiplinar ixtisas və peşələrin yaranmasından irəli gələn çağırışları qarşılamağa hazır olmaq, "Gələcəyin ixtisasları" konsepsiyasını mənimsəmək, | 1. "Gələcəyin ixtisasları" Konsepsiyasının hazırlanması. 2.Bu ixtisasların əmək bazarının tələbləri ilə uyğunluğunun qiymətləndirilməsi. | mart-oktyabr, 2025 | Tədris işləri üzrə prorektorluq, Tədris şöbəsi, Öyrətmə-öyrənmə məktəbi, Tədqiqat institutları, fakültə və kafedralar | "Gələcəyin ixtisasları" Konsepsiyasının hazırlanması. Bu ixtisasların əmək bazarının tələbləri ilə uyğunluğunun qiymətləndirilməsi. | 2025-ci ilin sonunadək əmək bazarının inkişaf tendensiyalarına uyğun min. 2 yeni ixtisas təklifinin hazırlanması və təqdim edilməsi. Yeni ixtisasların uyğunluğunu qiymətləndirən bazar araşdırmalarının və sektor rəylərinin toplanması, təklif olunan ixtisasların 80% əmək bazarı tələbləri ilə uyğunluğunun təmin edilməsi. | Tədris şöbəsi, Kurrikulumun planlaşdırma və koordinasiya qrupu Öyrətmə-öyrənmə məktəbi, Tədqiqat institutları, fakültə və kafedralar | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | M1. H1.4. AH 1.4.7 2030-cu ilədək süni intellekt, robotlaşma və avtomatlaşdırmanın sürətli tətbiqinin gözləndiyini nəzərə alaraq, yaranacaq yeni multidissiplinar ixtisaslar üzrə mütəxəssis hazırlığı, mövcud ixtisasların yenilənməsi və əvəz olunması istiqamətində fəaliyyət həyata keçirmək. | 1. "Gələcəyin ixtisasları" Konsepsiyası üzrə Süni intellekt, robotlaşma və avtomatlaşdırma sahələrində müvafiq tədris proqramları və kurikulumlar hazırlamaq. 2. Mövcud mühəndislik və texnologiya sahələrindəki proqramları süni intellekt və avtomatlaşdırma ilə əlaqəli mövzularla zənginləşdirmək. 3. Akademik heyət üçün müvafiq təlim və seminarlar təşkil etmək. | fevral-noyabr, 2025 | Tədris işləri üzrə prorektorluq, Data elmi və süni intellekt institutu, Tədris şöbəsi, Təhsildə İT və metodik dəstək institutu, Öyrətmə-öyrənmə məktəbi, Rəqəmsal Transformasiya Şurası, Kiberfiziki sistemlər və kibertəhlükəsizlik institutu, Data elmi və süni intellekt institutu, fakültə və kafedralar. | "Gələcəyin ixtisasları" Konsepsiyasına əsasən yeni tədris proqramlarının hazırlanması və yeni yaranacaq ixtisaslar üzrə mütəxəssislərin hazırlanması məqsədilə təlimlərin təşkil edilməsi. | Təsdiqlənmiş tədris planları və fənn proqramları, Keçirilmiş təlimlərin sayı 2030-cu ilə qədər süni intellekt, robotlaşdırma və avtomatlaşdırma sahələrində ən yeni fənn proqramlarının hazırlanması və akademik heyətin müvafiq təlimlərdə iştirak fazi. | Tədris şöbəsi, Təhsildə İT və metodik dəstək institutu, Təhsildə İT və metodik dəstək institutu, Öyrətmə-öyrənmə məktəbi, fakültə və kafedralar. | |
| | M1. H1.5. AH 1.5.1 2026-cı ilədək AzTU-da bütün sahələrdə rəqəmsallaşmanı təmin etmək məqsədilə rəqəmsal idarəetmə, mükəmməl elektron tələbə-məlumat bazasının yaradılması, tədris prosesinin elektron təşkili və idarə edilməsi, elektron kitabxana informasiya sisteminin təşkilinə və xidmətlərin elektronlaşmasına nail olmaq; | 1. Rəqəmsal idarəetmə sisteminin Yaradılması. 2. Elektron tələbə-məlumat bazasının yaradılamsı. 3. Elektron təhsil sisteminin yaradılması. 4. Elektron kitabxana və informasiya sistemi 5. Xidmətlərin elektronlaşması. | yanvar- noyabr 2025 | Rəqəmsal Transformasiya Şurası, Kitabxana informasiya mərkəzi, İnformasiya texnologiyaları departmaneti, Bir pəncərə xidmət şöbəsi, KOİCA | Rəqəmsal idarəetmə sisteminin Yaradılması. Elektron tələbə-məlumat bazasının yaradılamsı. Elektron təhsil sisteminin yaradılması. Elektron kitabxana və informasiya sistemi. Xidmətlərin elektronlaşması. | Yaradılmış elektron baza və sistemlərin istifadəyə verilməsi, istifadəçi sayı, məlumatların təhlükəsizliyi dərəcəsi, istifadəçi sayı, xidmətlərin effektivliyi dərəcəsi. | Rəqəmsal Transformasiya Şurası, Kitabxana informasiya mərkəzi, İnformasiya texnologiyaları departmaneti, Bir pəncərə xidmət şöbəsi, KOİCA | |
| TƏDQİQAT və İNNOVASİYA | M2. H2.1. AH 2.1.2. AzTU-da tədqiqat işlərinin (xüsusilə dissertasiya işlərinin) yerinə yetirilməsinin real layihələr əsasında həyata keçirilməsi, nəticələrinin tətbiqi və nəşrini davamlı olaraq dəstəkləmək; | 1. İnnovativ tədqiqat mərkəzlərinin yaradılması və laboratoriyaların təkmilləşdirilməsi. 2. Sənaye-akademik tərəfdaşlıqlar çərçivəsində dissertasiya işlərinin real layihələrə əsaslanması. 3. Tədqiqat nəticələrinin sənaye tətbiqinə yönəldilməsi. | yanvar-dekabr, 2025 | Elm və innovasiyalar üzrə prorektorluq, Tədqiqat və inkişaf şöbəsi, Yüksək Təhsil İnstitutu, MBA, Tədqiqat institutları, Laboratoriyalar, fakültələr, kafedralar. | İnnovativ tədqiqat mərkəzləri və laboratoriyaların fəaliyyətinin təkmilləşdirilməsi, universitet-sənaye əməkdaşlığı çərçivəsində real layihələrə əsaslanan dissertasiya işlərinin artırılması, tədqiqat nəticələrinin sənaye tətbiqinə yönəldilməsi. | İnstitut və laboratoriyaların fəaliyyətinin təkmilləşdirilmə dərəcəsi, real layihələrə əsaslanan dissertasiya işlərində illik 15% artım, tədqiqat nəticələrinin sənayə tətbiqi, sənayedə istifadə edilən yeni texnologiya və məhsulların sayındakı illik artım faizi | Yüksək Təhsil İnstitutu, MBA | |
| | M2. H2.1. AH 2.1.3AzTU-nun Elmi Əsərlər jurnalının müasir standartlara uyğun dərci, sahələr üzrə müasir beynəlxalq statuslu jurnallar formalaşdırılması, tədqiqatların nəticələrini universitetin və dünyanın yüksək statuslu jurnallarında dərc edilməsini təmin etmək; | 1. AzTU Elmi Əsərlər jurnalının indeksləşdirilməsinin təmin edilməsi. 2.Tədqiqat nəticələrinin tanınmış jurnallara təqdim edilməsi | mart-noyabr, 2025 | Elm və innovasiyalar üzrə prorektorluq, Tədqiqat və inkişaf şöbəsi, Tədqiqat institutları, fakültələr, kafedralar. | Jurnalın indeksləşdirilməsinin təmin edilməsi və tədqiqat nəticələrinin tanınmış jurnallara təqdim edilməsi. | Beynəlxalq indekslərdə yer almış elmi jurnal, dərc olunmuş məqalələrin sayındakı və keyfiyyətindəki artım, yüksək impakt faktorlu jurnallarda nəşr olunmuş məqalə sayında 10% artım. | Müvafiq cavabdeh struktur bölmələr Maliyyə resursu | |
| | M2. H2.1. AH2.1.5 2025-ci ildə akademik əməkdaşlar üçün "elmi etika" qaydalarının hazırlanması və qəbul edilməsinə dəstək vermək. | 1. "Elmi etika" qaydaların hazırlanması. 2. "Elmi Etika" Komitəsi və müvafiq dəstək xidmətlərinin təmin edilməsi. | may-sentyabr, 2025 may | Elm və innovasiyalar üzrə prorektorluq, Tədqiqat və inkişaf şöbəsi, Tədqiqat institutları. | Elmi etika qaydalarının hazırlanması və "Elmi Etika" Komitəsinin fəaliyyətə başlaması. | Elmi Şurada təsdiqlənmiş "Elmi etika" qaydaları, Komitənin yaradılması və ildə ən azı 2 iclas keçirməsi, Tədqiqatçılar üçün elmi etika qaydalarına dair ən azı 2 təlim və ya seminarın təşkil olunması. | Tədqiqat və inkişaf şöbəsi, Tədqiqat institutları. | |
| | M2. H2.1. AH 2.1.6 Tədqiqat İnstitutları ilə kafedraların və tədqiqat laboratoriyalarının fəaliyyətinin əlaqələndirilməsinin təmin edilməsi. | 1. Tədqiqat institutlarının əsasnamələri və fəaliyyət planlarının hazırlanması. 2. Tədqiqat institutları, kafedralar və tədqiqat laboratoriyaları arasında əməkdaşlıq mexanizmlərinin yaradılması və birgə elmi-tədqiqat layihələrinin təşviqi. | mart-sentyabr, 2025 | Elm və innovasiyalar üzrə prorektorluq, Tədqiqat və inkişaf şöbəsi, Elmi tədqiqat institutları, laboratoriyalar, dekanlıqlar, kafedralar | Tədqiqat institutları, kafedralar və tədqiqat laboratoriyaları arasında səmərəli əlaqələndirmənin təmin edilməsi və birgə elmi-tədqiqat fəaliyyətlərinin artırılması. | Təsdiqlənmiş əsasnamə və FP-nın sayı, Əlaqələndirilən institut, kafedra və laboratoriyaların, həmçinin birgə tədqiqat layihələrinin sayı. Nəşr olunan elmi məqalə, patent və sənaye tərəfdaşlığı müqavilələrinin sayı. | Tədqiqat institutları, kafedralar, laboratoriyalar | |
| | M2. H2.2. AH2.2.1 AzTU-da iqtisadiyyatın, cəmiyyətin, habelə tədris prosesinin və xidmət sahələrinin inkişafına töhfə verən davamlı, məsuliyyətli və yüksək səviyyəli tədqiqat qruplarının dəstəklənməsi; | 1. AzTU-da davamlı və məsuliyyətli tədqiqat qruplarının yaradılması və inkişafının dəstəklənməsi. 2. Tədqiqatların iqtisadiyyat, cəmiyyət və tədris sahələrinə təsirinin artırılması üçün strategiya və maliyyə dəstəyinin təmin edilməsi. | mart-oktyabr, 2025 | Elm və innovasiyalar üzrə prorektorluq, Maliyyə-təsərrüfat işləri üzrə prorektor, Tədqiqat və inkişaf şöbəsi, Elmi tədqiqat institutları, Maliyyə təminatı şöbəsi, dekanlıqlar və kafedralar | AzTU-da davamlı və məsuliyyətli tədqiqat qruplarının dəstəklənməsi və onların iqtisadiyyat, cəmiyyət və tədris sahələrinə töhfə verməsi. | Yaradılan tədqiqat qruplarının sayı min. 3 həyata keçirilən layihələrin iqtisadiyyata, cəmiyyətə yönəlmiş tədqiqat nəticələrinin sayı min. 3 Tədqiqat qruplarının tədris və xidmət sahələrində əldə etdiyi nəticələr və layihələrə verilmiş qrant və maliyyə dəstəyinin 10% artması. | Tədqiqat institutları, kafedralar | |
| | M2. H2.2. AH 2.2.2 AzTU-da innovativ düşüncəli və təşəbbüskar tədqiqat qrupları üçün riskləri azaltmaq, universitet üçün əsas araşdırma sahələrində tədqiqat qrupları arasında əməkdaşlığı gücləndirmək, universitetdaxili motivasiyaedici maliyyələşdirmə modelini davamlı olaraq inkişaf etdirmək; | 1. Universitet üçün əsas araşdırma sahələrinin müəyyənləşdirilməsi 2. Stimullaşdırıcı maliyyə modelinin təkmilləşdirilməsi. | mart-oktyabr 2025 | Elm və innovasiyalar üzrə prorektorluq, Maliyyə-təsərrüfat işləri üzrə prorektor, Tədqiqat və inkişaf şöbəsi, Elmi tədqiqat institutları, Maliyyə və mühasibat departamenti, dekanlıqlar və kafedralar | Universitet üçün prioritet araşdırma sahələrinin müəyyən edilməsi və innovativ tədqiqat qrupları arasında əməkdaşlığı gücləndirmək. Tədqiqatları dəstəkləyən stimullaşdırıcı maliyyə modelinin təkmilləşdirilməsi. | Müəyyənləşdirilmiş əsas tədqiqat sahələri üzrə kollektiv tədqiqat layihələri nəticəsində dərc olunan ortaq məqalələrin sayı min.3, tədqiqat qruplarına ayrılan illik maliyyə vəsaitinin artımı | Tədqiqat və inkişaf şöbəsi, Maliyyə şöbəsi, dekanlıq və kafedralar | |
| | M2. H2.2. AH 2.2.4 Tədqiqatların dəstəklənməsi məqsədilə hər tədris ilində real problemləri qarşılayan müxtəlif sahə və nominasiyalar üzrə layihə əsaslı ən azı 3 müsabiqənin keçirilməsi və layihə komandalarının stimullaşdırılmasının təmin edilməsi | 1.Tematik tədqiqat qruplarının yaradılması, 2. Tədqiqatları dəstəkləyən layihə əsaslı müsabiqələrin təşkili və layihə komandalarının stimullaşdırılması. | aprel-noyabr 2025 | Elm və innovasiyalar üzrə prorektor, Tədqiqat və inkişaf şöbəsi, Texnoloji transfer ofisi, SmartTech İnnovatorlar Mərkəzi, Tədqiqat institutları, fakültələr, kafedralar | Tematik tədqiqat qruplarının yaradılması və tədqiqatları dəstəkləyən layihə əsaslı müsabiqələrin təşkili ilə innovasiya və elmi tədqiqatların inkişaf etdirilməsi. Layihə komandalarının fəaliyyətlərini stimullaşdıraraq daha yüksək nəticələr əldə etmək. | Müsabiqələrdə (min. 3)iştirak edən tədqiqat qruplarının sayı, qalib gələn layihələrin elmi nəşrlərə və innovativ məhsullara çevrilmə faizi, | Tədqiqat və inkişaf şöbəsi, Texnoloji transfer ofisi, SmartTech İnnovatorlar Mərkəzi, Maliyyə şöbəsi | |
| | M2. H2.2. AH 2.2.5 Qlobal ali təhsil bazarında davamlı mövqeyə malik olmaq və beynəlxalq reytinq cədvəllərində layiqli mövqedə yer almaq | 1. Qlobal ali təhsil bazarında mövqeyin gücləndirilməsi üçün beynəlxalq əməkdaşlıq, tələbə mübadiləsi, elmi nəşrlərin artırılması, ingilis dilli tədrisin genişləndirilməsi. 2. Beynəlxalq reytinq sistemlərinə inteqrasiya fəaliyyətinin təşkili. | yanvar-dekabr 2025 | Elm və innovasiyalar üzrə prorektor, Tədqiqat və inkişaf şöbəsi, fakültələr, kafedralar | Qlobal ali təhsil bazarında mövqeyin gücləndirilməsi, beynəlxalq reytinq sistemlərinə inteqrasiya fəaliyyətinin təşkili nəticəsində reytinqlərdə irəliləmələrə nail olmaq. | "Times Higher Education (THE) World University Rankings" reytinq cədvəllərində yer almaq, "Quacquarelli Symonds" (QS) reytinq cədvəlində 1200-ə düşmək, "QS by Subject" reyintq cədvəlində təmsil olunma. | Tədqiqat və inkişaf şöbəsi, fakültə və kafedralar. | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | M2. H2.2. AH 2.3.2 2030-cu ildək AzTU-nun tədqiqat və innovasiyalarının tətbiqindən daxil olan illik gəlirlərini ümumi illik gəlirlərin 20 % həddinə çatdırmaq. | 1. Tədqiqat nəticələrinin kommersiyalaşdırılma,sənaye tərəfdaşları ilə əməkdaşlığın gücləndirilməsi 2. Patent, lisenziya və texnologiya transferi proseslərinin inkişaf etdirilməsi üçün marketinq və biznes inkişaf proqramlarının (Qrant, investisiya) həyata keçirilməsi. | mart-noyabr 2025 | Elm və innovasiyalar üzrə prorektor, Tədqiqat və inkişaf şöbəsi, Texnoloji transfer ofisi, SmartTech İnnovatorlar Mərkəzi, Tədqiqat institutları, fakültələr, kafedralar | Kommersiyalaşdırılmış tədqiqat nəticələrinin sayının artırılması. Sənaye tərəfdaşları ilə bağlanmış əməkdaşlıq müqavilələri (MOU) üzrə icra edilən layihələrin sayının artırılması, Patent və lisenziya gəlirlərinin ümumi gəlirə nisbətinin artması üçün həyata keçirilmiş marketinq və biznes inkişaf proqramlarının sayı. | Kommersiyalaşdırılmış tədqiqat nəticələrinin sayı. Sənaye tərəfdaşları ilə bağlanmış əməkdaşlıq müqavilələri üzrə icra edilən layihələrin sayında illik artım. Patent və lisenziya gəlirlərinin ümumi gəlirə nisbətinin artması. | Texnoloji transfer ofisi heyəti | |
| UNİVERSİTET-SƏNAYE ƏMƏKDAŞLIĞI | M3. H3.1. AH3.1.1 AzTU Azərbaycan iqtisadiyyatının baza sektorlarının tam əksəriyyətinin kadr və tədqiqat ehtiyaclarını ödəyən əsas təhsil-tədqiqat mərkəzi olaraq iqtisadiyyatın əsas ehtiyaclarını və müasir texnologiyalarla davamlı təmin olunmasını araşdıraraq, regionun nüfuzlu universitetləri, tədqiqat mərkəzləri və şirkətləri ilə əməkdaşlıq edərək, regional mövqeyimizi gücləndirmək; | 1. Mütəmadi olaraq bazar araşdırmalarının aparılması. 2. İnnovasiya və texnologiya transferi layihələrinin həyata keçirilməsi. 3. Regiondakı nüfuzlu univrsitetlərlə əməkdaşlıq edilməsi. | mart-noyabr, 2025 | Elm və innovasiyalar üzrə prorektor, Texnoloji transfer ofisi, SmartTech İnnovatorlar Mərkəzi, Tədqiqat institutları, fakültələr, kafedralar | İllik bazar araşdırmalarının aparılması, həyata keçirilmiş innovasiya və texnologiya transferi layihələrinin sayının artırılması, əməkdaşlıq edilən universitetlərin sayının artırılması. | Bazar araşdırmaları üzrə illik hesabatların sayında 15% artım. - İnnovasiya və texnologiya transferi layihələrinin sayında illik 10% artım. Texnoloji transfer ofisinin əməkdaşlıq müqavilələri imzalanmış universitetlərlə ortaq layihələrin həyata keçirilməsində illik 10% artım. | Texnoloji transfer ofisi heyəti | |
| | M3. H3.1. AH 3.1.2 AzTU-da tədqiqat nəticələrinin əlavə dəyər yaratması üçün start-up və spin-off innovativ subyektlərin yaradılmasını təmin etmək; | 1. AzTU-da tədqiqat nəticələrinin kommersiyalaşdırılmasını təşviq etmək üçün start-up və spin-off subyektlərinin yaradılması 2. Tədqiqatçıları və tələbələri dəstəkləyərək, innovativ ideyaların bazara çıxarılması üçün mentorluq və maliyyə dəstəyi xidmətləri təmin etmək. | mart - dekabr, 2025 | Elm və innovasiyalar üzrə prorektorluq, Texnoloji transfer ofisi, SmartTech İnnovatorlar Mərkəzi, Tədqiqat institutları, fakültələr, kafedralar. | AzTU-da il ərzində yeni start-up və spin-off subyektinin yaradılması, kommersiyalaşdırılması üçün dəstək proqramlarının həyata keçirilməsi. | İl ərzində 2 yeni start-up laiyhəsinin yaradılması, tədqiqatçı və tələbələrin 2 start-up və spin-off subyektinin bazara çıxarılması və ilkin maliyyə dəstəyi alması. İl ərzində minimum 2 hakaton tədbirinin keçirilməsi | Texnoloji transfer ofisi heyəti, fakültələr | |
| | M3. H3.1. AH 3.2.1 Əqli mülkiyyətin yaradılmasına sərmayə qoymaq, tədqiqat nailiyyətlərinin daha sağlam bir cəmiyyət yaratmaq üçün tətbiq etməyə dəstək verən universitet olaraq yaradılan əqli mülkiyyəti qorumaq; | Əqli mülkiyyətin qorunması və kommersiyalaşdırılması üçün patentləşdirmə, lisenziyalaşdırma və müvafiq hüquqi, maliyyə dəstəyinin təmin edilməsi. | yanvar-dekabr, 2025 | Elm və innovasiyalar üzrə prorektorluq, Tədqiqat və inkişaf şöbəsi, Elmi tədqiqat institutları, hüquq sektoru, dekanlıqlar, kafedralar | Əqli mülkiyyətin qorunması və kommersiyalaşdırılması məqsədilə patent və lisenziya proseslərinin 20%-dən çox artırılması və hüquqi, maliyyə dəstəyinin təmin edilməsi. | Patentləşdirilən və lisenziyalaşdırılan əqli mülkiyyət obyektlərinin sayında illik 10% artım (minimum 5 yeni patent), tədqiqat nəticələrinin sənaye və cəmiyyətdə təsir göstəricisi (tətbiq edilmiş minimum 3 yeni texnoloji həll) | Texnoloji transfer ofisi heyəti, fakültələr | |
| BEYNƏLMİLƏLLƏŞMƏ | M4. H4.1. AH 4.1.1 Mühəndislik proqramları üzrə beynəlxalq səviyyədə akkreditasiya prosedurlarına hazırlıq və akkreditasiya şəhadətnamələrinin alınması. | 1. Akkreditasiya presesinə hazırlıq işlərini aparmaq. 2. Beynəlxalq akkreditasiya qurumları ilə əlaqə və yazışmaların aparılması. | dekabr, 2025 | Beynəlxalq əlaqələr üzrə prorektorluq, Keyfiyyətin təminatı şöbəsi, Tədris şöbəsi, müvafiq fakültə və kafedralar | Mühəndislik proqramları üzrə beynəlxalq səviyyədə akkreditasiya prosedurlarına hazırlıq və akkreditasiya şəhadətnamələrinin alınması. | Beynəlxalq akkreditasyadan keçmiş 10 proqram. | Keyfiyyətin təminatı şöbəsi, Tədris şöbəsi, müvafiq fakültə və kafedralar | |
| | M4. H4.1. AH 4.1.3 Beynəlmiləşmə üzrə strukturlararası koordinasiya mexanizminin qurulmasının təmin edilməsi. | 1. Strukturlararası koordinasiya mexanizminin qurulması. 2. Şöbə və struktur bölmələr arasında məlumat mübadiləsinin təmin edilməsi üçün Beynəlxalq əlaqələr üzrə dekan müavinlərinin təyin olunması. | yanvar-dekabr 2025 | Beynəlxalq əlaqələr üzrə prorektorluq, Beynəlxalq əlaqələr şöbəsi, dekanlıqlar | Beynəlmiləşmə üzrə strukturlararası koordinasiya mexanizminin qurulmasının təmin edilməsi. | Koordinasiya mexanizmlərinin tətbiq edilməsi və əməkdaşlıq proseslərinin illik 15% artması, Məlumat mübadiləsi üçün elektron vasitələrdən istifadənin illik 15% artımı, dekan müavinlərinin fəaliyyətinə dair müsbət qiymətləndirmələrin 85% təşkil etməsi. | BƏ şöbəsinin əməkdaşları,Fakültə dekanları, Beynəlxalq əlaqələr üzrə dekan müavinləri. | |
| | M4. H4.1. AH 4.1.4 Tələbə və müəllimləri beynəlxalq layihələrə cəlb edərək, onların qlobal təhsil və tədqiqat mühitində iştirakını təşviq etmək. | 1. Tələbə və müəllimlər üçün beynəlxalq layihələrdə iştirakla bağlı müvafiq təlim və məlumatlandırma sessiyalarının keçirilməsi. 2. Beynəlxlaq mübadilə proqramlarında iştirak etmiş tələbə və müəllimlər tərəfindən təşviqedici təqdimatların təşkili. | yanvar-dekabr 2025 | Beynəlxalq əlaqələr üzrə prorektorluq, Beynəlxalq əlaqələr şöbəsi, Elm və innovasiyalar üzrə prorektorluq, Tədqiqat və inkişaf şöbəsi. | Tələbə və müəllimlər üçün beynəlxalq layihələrdə iştirakla bağlı keçirilən təlim və məlumat sessiyalarının sayını artırmaq. Beynəlxalq mübadilə proqramlarında iştirak etmiş tələbə və müəllimlərin təqdimatlarının təşkil olunma sayını artırmaq. | İl ərzində beynəlxalq layihələrlə bağlı minimum 3 keçirilmiş məlumatlandırma sessiyası. Məlumatlandırma sessiyalarında iştirak edən müəllim və tələbələrin sayında illik 10% artım. Təşviqedici hesabat təqdimatlarının keçirilməsində illik 10% artım. | BƏ şöbəsinin əməkdaşları,Fakültə dekanları, Beynəlxalq əlaqələr üzrə dekan müavinləri. | |
| | M4. H4.2. AH 4.2.3 Müxtəlif beynəlxalq mobillik proqramları vasitəsilə tələbə və müəllimlərin qısa müddətli mübadilələrdə iştirakını təmin etmək | Tələbə və müəllimlərin qısa müddətli mübadilə proqramlarında iştirakını təşviq və təmin etmək. | yanvar-dekabr 2025 | Beynəlxalq əlaqələr üzrə prorektorluq, Beynəlxalq əlaqələr şöbəsi, | Mübadilə proqramlarında iştirak edən tələbə və müəllimlərin sayının artırılması. | Beynəlxalq mobillik proqramlarında iştirak edən tələbə və müəllim sayının illik minimum 10 % artımı. Təşviqedici görüşlərin sayı və iştirakçı sayında minimum 10 % artım. | BƏ şöbəsinin əməkdaşları, Fakültə dekanları, Beynəlxalq əlaqələr üzrə dekan müavinləri. | |
| | M4. H4.2. AH 4.2.4 AzTU-da beynəlxalq tədqiqatçılar və müəllimlərin qısamüddətli və uzunmüddətli elmi təcrübə proqramları və tədrisə cəlb edilməsi. | 1. Beynəlxalq tədqiqatçıların tədris və tədqiqat fəaliyyətlərinə cəlb edilməsi 2. Beynəlxalq elmi mübadilə və əməkdaşlıq imkanlarının yaradılması. | yanvar-dekabr 2025 | Beynəlxalq əlaqələr üzrə prorektorluq, Beynəlxalq əlaqələr şöbəsi, Tədqiqat və inkişaf şöbəsi, Tədris şöbəsi | Beynəlxalq tədqiqatçı və müəllimlərin qısamüddətli və uzunmüddətli elmi təcrübə və tədrisə cəlbi. | Tədqiqat və tədrisə cəlb olunmuş əcnəbi müəllim sayının illik 10% artımı | BƏ şöbəsinin əməkdaşları, Fakültə dekanları, Beynəlxalq əlaqələr üzrə dekan müavinləri. | |
| | M4. H4.2 AH 4.2.6 Magistratura səviyyəsində yeni ikili diplom proqramının yaradılması, beynəlxalq təhsil proqramlarının genişləndirilməsi, ali təhsil səviyyələri üzrə əcnəbi tələbələrin sayının artırılması | 1. Türkiyənin İTÜ danışıqların aparılması 2. Tədris planının və ikili diplom proqramı müqaviləsinin hazırlanması. 3. Müqavilə və təhsil proqramının ARETN və TMTN göndərilməsi. 4. Təhsilin inkişaf fondu ilə təsis edilmiş "Education in Azerbaijan" MMC ilə əməkdaşlıq. | yanvar-dekabr 2025 | Beynəlxalq əlaqələr üzrə prorektorluq, Beynəlxalq əlaqələr şöbəsi, | Magistratura səviyyəsində yeni ikili diplom proqramının açılması, əcnəbi tələbələrinin sayının artırılması. | Magistratura səviyyəsində "İnformasiya təhlükəsizliyi" ixtisasının "Kibertəhlükəsizlik və Kriptoqrafiya Mühəndisliyi" ixtisaslaşması üzrə ikili diplom proqramının yaradılması, əcnəbi tələbə sayının 500-ə çatdırılması. | BƏ şöbəsinin əməkdaşları,Fakültə dekanları, Beynəlxalq əlaqələr üzrə dekan müavinləri. | |
| | M5. H5.1. AH5.1.1 Universitetə rəhbərliyin hərtərəfli dəyər əsasında qurulmasına, bütün səviyyələrdə idarəetmə qərarlarını yüksək keyfiyyətli tədris, öyrənmə və tədqiqatlara yönəltməklə universitetin inkişafına dəstək vermək; | 1. Rəhbərliyin dəyər əsaslı qurulması üçün strateji inkişaf planına əsasən siyasət sənədlərinin hazırlanması. 2. Struktur bölmələr tərəfindən fəaliyyət planlarının hazırlanması. 3. Fəaliyyət planları üzrə hesabatlılığının təmin edilməsi. | yanvar-dekabr, 2025 | Strateji inkişaf şöbəsi, Keyfiyyət təminatı şöbəsi və digər struktur vahidləri. | Universitet üzrə Strateji inkişaf planında nəzərdə tutulmuş məsələlərlə bağlı hesabatlılığın təmin edilməsi. | Təsdiqlənmiş fəaliyyət planları və hesabatların illik 80%-i əhatə etməsi. | Strateji inkişaf şöbəsi, Keyfiyyət təminatı şöbəsi və digər struktur vahidləri. | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| SOSİALLAŞMA | 5.1 2 AzTU ailəsi bir-birinə sıx bağlı olan sağlam və işgüzar dostluq münasibətlərini, akademik düşüncə azadlığını, öncül araşdırma və yenilikçiliyi hərəkətverici qüvvə kimi təqdir etməklə, hamının hərtərəfli şəkildə özünü inkişaf etdirməsini təşviq etmək; | 1. Rəqəmsal kommunikasiya vasitələri (intranet, rəsmi e-poçt sistemləri və s.) ilə effektiv məlumat mübadiləsinin təmin edilməsi. 2.Strukturlar arasında operativ məlumat mübadiləsini təmin etmək üçün universitetin daxili kommunikasiya sistemlərinin təkmilləşdirilməsi. | yanvar-sentyabr, 2025 | Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektorluq, Kommunikasiya şöbəsi, struktur bölmələr. | Rəqəmsal kommunikasiya vasitələrindən (intranet, rəsmi e-poçt sistemləri və s.) istifadə qaydalarının hazırlanması və tətbiqi, Universitetin daxili kommunikasiya sistemlərini təkmilləşdirərək strukturlar arasında operativ və effektiv məlumat mübadiləsini təmin etmək. | Rəqəmsal kommunikasiya vasitələrinin istifadə qaydalarının hazırlanması və tətbiqindən sonra strukturlar arasında məlumat mübadiləsi üzrə məmnuniyyət səviyyəsinin %80-ə çatdırılması. | Kommunikasiya şöbəsi, struktur bölmələr. | |
| | M5. H5.1. AH 5.1.3 Universitetdə sosial fəaliyyətlər üzrə (təşkilatlar, klublar, dərnəklər) işi təşkil etmək. | 1. Universitetdə mövcud olan sosial təşkilatların və dərnəklərin fəaliyyətlərini dəstəkləmək. 2. Sosial fəaliyyətlərə tələbələrin daha aktiv şəkildə cəlb olunmasını təmin etmək üçün, xüsusi motivasiyaedici proqramlar və təşviq tədbirləri təşkil etmək. | fevral-sentyabr, 2025 | Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektorluq, Kommunikasiya şöbəsi, fakültələr. | Universitetdə mövcud olan sosial təşkilatların, klubların, dərnəklərin fəaliyyətlərini qiymətləndirmək. Tələbə klublarının və dərnəklərinin fəaliyyətini tənzimləyən əsasnamənin tərtib olunması. Yeni klubların, dərnəklərin yaradılmasını təşviq edərək fəaliyyətini dəstəkləmək. | Sosial təşkilatların və dərnəklərin fəaliyyətlərinə iştirak edən tələbə sayında illik 10% artımın təmin edilməsi. | Tələbə klubları (dərnəkləri) koordinasiya komissiyası, Tələbə klubları (dərnəkləri) üçün məkan (kovörkinq tipli, atelye və s.), maliyyə. | |
| | M5. H5.2. AH 5.2.1 Karyera və Məşğulluq Mərkəzinin fəaliyyət mexanizminin (xidmətlərinin əhatə dairəsi, reallaşdırılması mexanizmləri və tərəfdaşlarla əməkdaşlığın nəticə yönümlüyünün artırılması) işlənib hazırlanması. | KMM-nin fəaliyyət mexanizminin hazırlanması. | yanvar-sentyabr, 2025 | Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektorluq, Karyera məşğulluq mərkəzi. | Karyera modelinin təkmilləşdirilməsi ilə akademik və peşəkar inkişaf üçün daha effektiv və müasir dəstək sisteminin yaradılması. | Təkmilləşdirilmiş karyera modelinin tətbiqi ilə universitetin tələbə və məzunlarının işə düzəlmə nisbətində 20%-lik artım və karyera inkişafı üzrə dəstək xidmətlərinə müraciət edənlərin sayında 30%-lik artım təmin ediləcək. | Karyera məşğulluq mərkəzinin əməkdaşları | |
| | M5. H5.2. AH 5.2.3 AzTU Alumni hərəkatının qurulmasını təmin etmək, mükəmməl Məzun Assosiasiyası platforması (elektron) ilə daim AzTU-Məzunlar əks əlaqəsi yaratmaq; | 1. Məzun Assosiasiyasının yaradılması. 2. Tələbə-məzun elektron platformasının yaradılması. | yanvar-sentyabr 2025 | Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektorluq, Karyera məşğulluq mərkəzi, İnformasiya texnologiyaları departmaneti | Məzun Assosiasiyasının yaradılması və tələbə-məzun elektron platformasının qurulması ilə universitetin məzunları ilə davamlı əlaqə və əməkdaşlıq şəraitinin yaradılması. | Məzun Assosiasiyasının yaradılması və elektron platformanın istifadəyə verilməsi ilə məzunların 20%-nin platformaya üzv olması və məzun-tələbə əlaqələrinin 25%-lik artması təmin ediləcək. | Karyera və məşğulluq mərkəzi, İnformasiya texnologiyaları departamenti, dekanlıqlar | |
| | M5. H5.2. AH 5.2.4 Məzunlarla "əks əlaqə" işinin tamlıqla qurulması ilə sənayenin gözləntilərini düzgün müəyyən etmək, tədris işinin təşkilinə töhfə vermək; | 1. Sənaye və məzunlarla mütəmadi olaraq sorğuların və görüşlərin keçirilməsi. 2. Təhlil nəticələrinin tədrisə inteqrasiya edilməsi. | yanvar-dekabr 2025 | Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektorluq, Karyera məşğulluq mərkəzi, Tədris şöbəsi, Texnoloji transfer ofisi | Sənaye və məzunlarla mütəmadi sorğular və görüşlər keçirərək, tədris proqramlarının bazar tələblərinə uyğunlaşdırılması. | Təhlil nəticələrinin tədrisə inteqrasiyası ilə tələbələrin əmək bazarına uyğun bacarıqlarının 25%-lik artımı təmin ediləcək. | Karyera və məşğulluq mərkəzi,Tədris hissəsi, dekanlıqlar, kafedralar | |
| | M5. H5.2. AH 5.2.6 Yüksək nəticə göstərən tələbələrin universitetdə işlə təmin olunması, təhsillərini davam etməyə cəlb etmək, universitet məzunları, gələcək tələbələri və iş adamları ilə qarşılıqlı əlaqəni qurmağa dəstək vermək; | 1. Yüksək nəticə göstərən tələbələrin universitetdə işlə təmin olunması üçün təcrübə və iş imkanlarının yaradılması. 2. Karyera və şəbəkələşmə tədbirlərinin təşkil edilməsi. | yanvar-dekabr, 2025 | Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektorluq, Karyera məşğulluq mərkəzi, İnsan resursları departamenti. | Yüksək nəticə göstərən tələbələr üçün universitetdə təcrübə və işlə təmin edilməsi, karyera şəbəkələşməsi tədbirlərinin təşkil edilməsi, iş dünyası ilə əlaqələrin möhkəmləndirilməsi. | Yüksək nəticə göstərən tələbələrin universitetdə təhsil müddətində təcrübə və iş imkanlarına cəlb edilməsində illik 10% artım, keçirilmiş karyera və məşğulluq tədbirlərinin sayı, tələbələrin işə düzəlmə faizində illik 10% artım. | Karyera və məşğulluq mərkəzi İnsan resursları departamenti,Tədris hissəsi, dekanlıqlar | |
| | M5.H5.3 AH5.3.1 İstedadlı gənclərin AzTU-da mühəndislik ixtisaslarına cəlb edilməsi üçün AzTU-nun ikili diplom proqramları barədə ardıcıl PR-işlərinin aparılması. | Universitetin ikili diplom proqramlarının sosial media və digər rəqəmsal platformalarda PR kompaniyasının aparılması. | aprel-avqust, 2025 | Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektorluq, Kommunikasiya şöbəsi, SİŞ, Mətbuat xidməti | İkili diplom proqramlarının sosial media və digər rəqəmsal platformalarda PR kampaniyasının aparılması, proqramlara müraciətlərin artması. | İkili diplom proqramları ilə bağlı sosial media paylaşımlarının əhatə dairəsinin (reach) ən azı 50% artması və proqramlara müraciət edən tələbə sayındakı artım faizi. | Kommunikasiya şöbəsi, Mətbuat xidməti, maliyyə | |
| | M5.H5.3 AH5.3.2 AzTU brendinin yerli və beynəlxalq bazarda tanıdılması. | AzTU-nun yerli və beynəlxalq bazarda tanıdılması məqsədilə PR və marketinq kampaniyalarının həyata keçirilməsi, sosial media və rəqəmsal platformalarda aktivliyin gücləndirilməsi, eləcə də beynəlxalq sərgi, forum və akademik tədbirlərdə universitetin təmsil olunmasının təmin edilməsi. | aprel-sentyabr, 2025 | Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektorluq, Beynəlxalq əlaqələr üzrə prorektorluq, Kommunikasiya şöbəsi, SİŞ, Mətbuat xidməti | Universitetin PR və marketinq kampaniyalarının həyata keçirilməsi, sosial media və rəqəmsal platformalarda aktivliyin gücləndirilməsi, yerli, beynəlxalq sərgi və akademik tədbirlərdə universitetin təmsil olunmasının təmin edilməsi. | Sosial media izləyicilərinin sayında illik artım və paylaşımların əhatə dairəsinin (reach) artması, Yerli və beynəlxalq sərgilərdə iştirakın sayı, PR və marketinq kampaniyalarının nəticəsi olaraq universitetin tanınma dərəcəsinin ölçülməsi | Kommunikasiya şöbəsi, Mətbuat xidməti, maliyyə | |
| DAYANIQLI DÜNYA | M6. H6.1 AH 6.1.1 Tələbələrin istafdəsi üçün 24 saat xidmət göstərən müasir elektron kitabxana informasiya sisteminin yaradılmasını təmin etmək; | Elektron kitabxana informasiya sisteminin yaradılması məqsədilə rəqəmsal resursların və onlayn platformaların inteqrasiyasının təmin edilməsi. | yanvar-dekabr, 2025 | Kitabxana informasiya mərkəzi, İnformasiya texnologiyaları departmaneti, Maliyyə və mühasibat departamenti. | Elektron kitabxana informasiya sisteminin yaradılması | Elektron Kitabxana idarəetmə sistemi və modullarının işə düşməsi, sistemdən istifadə edən tələbələrin qeydiyyatının aparılması, repozitariyaya qəbul edilən resursların rəqəmsallaşdırılması. | Kitabxana informasiya mərkəzi əməkdaşları, maliyyə resursları. | |
| | M6. H6.2 AH 6.2.1 AzTU kampusunda enerji effektivliyini və resursların səmərəli istifadəsini artırmaq | Bərpa olunan enerji mənbələrinin istifadəsi, ətraf mühitin qorunması üçün tədbirlərin təşkil edilməsi. | yanvar-noyabr, 2025 | Elm və innovasiyalar üzrə prorektorluq, Enerji və dayanıqlı inkişaf institutu, Energetika fakültəsi, Enerji effektivliyi və yaşıl enerji texnologiyaları kafedrası | Bərpa olunan enerji mənbələrinin istifadəsini artırmaq və ətraf mühitin qorunmasına yönəlmiş tədbirlərin təşkili ilə dayanıqlı enerji istehsalını və ekoloji balansı təmin etmək. | Universitetin enerji ehtiyaclarının 20%-nin bərpa olunan enerji mənbələrindən təmin edilməsi, il ərzində ətraf mühitin qorunması ilə bağlı 3 tədbirin təşkil edilməsi | Enerji və dayanıqlı inkişaf institutu, Energetika fakültəsi, Enerji effektivliyi və yaşıl enerji texnologiyaları kafedrası, Kimya texnologiya, təkrar emal və ekologiya kafedrası əməkdaşları | |
| | M6. H 6.3 AH 6.3.1 Tələbələrin dayanıqlı inkişaf məqsədlərini mənimsəməsi üçün fakültələr üzrə tədris proqramlarına dayanıqlı inkişafla bağlı mövzuları inteqrasiya etmək | Fakültələr üzrə ixtisaslara uyğun mövzuların (Dayanıqlı inkişaf məqsədləri) müəyyənləşdirilməsi, sosial, iqtisadi, ekoloji kateqoriyalara uyğun tədris proqramlarına inteqrasiyası. | mart- avqust, 2025 | Tədris şöbəsi, Enerji və dayanıqlı inkişaf institutu, dekanlıqlar, kafedralar | Tədris proqramlarına dayanıqlı inkişafla bağlı mövzuları inteqrasiya etmək. | DİM ilə bağlı mövzuların tədris proqramlarına inteqrasiyası illik 15% təşkil etməsi. | Tədris şöbəsi, Enerji və dayanıqlı inkişaf institutu, dekanlıqlar, kafedralar | |
| | M6. H 6.4 AH 6.4.2 Dayanıqlı inkişaf məqsədlərinə uyğun olaraq maliyyə resurslarını səmərəli idarə etmək, uzunmüddətli maliyyə planlaşdırılması və risklərin idarə edilməsini təmin etmək. | Gəlir və xərclərin optimallaşdırılması, maliyyə proqnozlarının hazırlanması, daxili və xarici maliyyə risklərini izləmək, vaxtında müdaxilə etmək üçün proqnozlaşdırma alətlərindən istifadə etmək. | yanvar-dekabr, 2025 | Maliyyə və təsərrüfat işləri üzrə prorektorluq, Maliyyə və mühasibat departamenti, Analitik təhlil şöbəsi | Maliyyə dayanıqlığının təmin edilməsi | Maliyyə risklərinin 95% dəqiqliklə proqnozlaşdırılması, Daxili və xarici maliyyə riskləri üzrə hesabatların müntəzəm olaraq (ildə 2 dəfə) təqdim edilməsi və monitorinqin təmin edilməsi. | Maliyyə və mühasibat departamenti, Analitik təhlil şöbəsinin əməkdaşları. | |